

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 avqust 2022-ci il №66 (2677) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Prezident İlham Əliyev: Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi tviter səhifəsində Laçınla bağlı paylaşım edib.

Paylaşımda qeyd olunur: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!".

## Birinci vitse-prezident Mehriban Əliyeva azərbaycanlıların Laçın şəhərinə qayıdışı ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində azərbaycanlıların Laçın şəhərinə qayıdışı ilə bağlı paylaşım edib.

Birinci vitse-prezident Prezident İlham Əliyevin azərbaycanlıların Laçına qayıdışı ilə bağlı tvitini paylaşaraq qeyd edib: "Qarabağ Azərbaycandır!!!".

## Azərbaycanın Dövlət Bayrağı Laçın şəhərində ucaldılıb

Azərbaycan Respublikasının Dövlət Bayrağı avqustun 26-da Laçın şəhərində ucaldılıb.

AZƏRTAC xəbər verir ki, korpus komandiri general-mayor Kənan Seyidov bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə edib. Məruzədə qeyd olunub: "Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan! Əmrinizə əsasən, Azərbaycan Ordusu Laçın şəhərini, Zabux və Sus yaşayış məntəqələrini tam nəzarətə götürdü. Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır. Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib. Dövlətimizin başçısı bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Böyük perspektivə malik Orta Dəhliz layihəsinin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var



Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev avqustun 24-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Respublikasının Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Respublikasının Prezidentinə raport verdikdən sonra Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan əsgərlərini salamlayıb.

Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Qazaxıstan Prezidentinə, Qazaxıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi salamlayan Prezident İlham Əliyev rəsmi səfər etdiyindən məmnunluq duyduğunu qeyd edib. Rəsmi səfərin çox uğurlu keçəcəyini və Qazaxıstan-Azərbaycan dostluq, qardaşlıq münasibətləri yeni yüksək pilləyə qalxacağına əminliyini ifadə edib.

* * *

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də öz növbəsində göstərilən qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib. Ölkəmizə ilk rəsmi səfərindən şad olduğunu və bu görüşün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bugünkü danışıqların yekunlarına əsasən imzalanacaq sənədlərin ikitərəfli əməkdaşlığı, Qazaxıstan-Azərbaycan münasibətlərini yeni səviyyəyə çatdıracağını qeyd edib.

Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" - "Qızıl qartal" ali ordeni təqdim olunub.

Qazaxıstan **Prezidenti Kasım-Jomart Tokayev** çıxış edərək deyib:

- Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu.

Bu gün mən Sizin ölkənizə böyük məmnuniyyətlə rəsmi səfər edirəm. Biz məhdud tərkibdə çox səmərəli görüş keçirdik. Mənim səfərimin proqramına Sizin Qazaxıstan Respublikasının "Altın kıran" ali ordeni ilə təltif edilməyiniz mərasimi də daxildir. Qazaxıstanda Sizi görkəmli dövlət xadimi, bütün dünyada Azərbaycanı tarixi Zəfərə, Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış şəxsiyyət kimi tanıyır, ehtiram bəsləyir, hörmət edirlər. Bu münasibətlə Sizi bu gün şəxsi görüşümüz zamanı təbrik etmişəm. Siz dövlətlərimiz arasında çoxtərəfli, çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə verirsiniz. Bütün qazax xalqı adından ehtiram əlaməti olaraq bu gün Sizə "Altın kıran" ordenini təqdim etmək istərdim.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi töhfəsinə görə "Altın kıran" ordeni ilə təltif edilməsi haqqında Qazaxıstan Prezidentinin Fərmanı oxundu.

* * *

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Altın kıran" ordenini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib.

Azərbaycan **Prezidenti İlham Əliyev** çıxış edərək deyib:

- Möhtərəm Kasım-Jomart Kemeleviç, mənim əməyimi yüksək qiymətləndirdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istərdim. Mən çox fəxr edirəm ki, Siz məni qardaş ölkə olan Qazaxıstanın ali ordeni ilə təltif etməyi lazım bilmisiniz. Bundan sonra da bizim dostluq və qardaşlıq münasibətlərinin inkişafına töhfə vermək üçün öz tərəfimdən əlimdən gələni edəcəyəm.

Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır. Bu gün Qazaxıstan və Azərbaycan müstəqillik yolunda inamla irəliləyən iki müstəqil dövlət kimi iqtisadiyyatın inkişafında, sosial məsələlərin həllində yüksək sürət nümayiş etdirir, dünya arenasında ölkələrimizin nüfuzu artır. Mən bu mükafatı bütün Azərbaycan xalqına hörmət əlaməti hesab edirəm. Bu mükafatı Siz təqdim etdiyinizə görə xüsusi qürur duyuram. Sizin qeyd etdiyiniz kimi, bu gün biz, ikitərəfli gündəliyin bir çox məsələlərinə və beynəlxalq inkişaf məsələlərinə dair ətraflı söhbət etdik. Mən artıq demişəm, bir daha təsdiqləmək istəyirəm ki, Sizin yürütdüyünüz islahatlar kursunu tamamilə dəstəkləyirik. Sizin yürütdüyünüz siyasət Qazaxıstanın, Qazaxıstan xalqının milli mənafelərinə tamamilə uyğundur. Artıq qazanılmış uğurlar Sizin seçdiyiniz kursun düzgün olmasına dəlalət edir. Qazaxıstan xalqının bu kursu dəstəkləməsi bir daha onu göstərir ki, bizə qardaş olan Qazaxıstan düzgün yolla gedir. Əminəm ki, Siz qarşıya qoyduğunuz bütün hədəflərə çatacaqsınız. Lakin bu yüksək mükafat mənim, əlbəttə ki, münasibətlərimizin möhkəmləndirilməsi yolunda bundan sonrakı fəaliyyətimdə üzərimə vəzifələr qoyur. Əmin ola bilərsiniz ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq.

Bu yüksək mükafata görə bir daha təşəkkür edirəm.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar.

"Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev dövlət başçılarına Qazaxıstan Prezidentinin şəxsi tapşırığı əsasında qısa müddətdə hazırlanan layihə barədə məlumat verib.

Qeyd olunub ki, 2 hektar ərazidə müasir memarlığa uyğun binalar, amfiteatr inşa ediləcək, burada uşaqların yaradıcılığını üzə çıxarmaq və inkişaf etdirmək üçün hər cür şərait olacaq.

Sonra layihə barədə videoçarx nümayiş etdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu təşəbbüsə görə Qazaxıstan Prezidentinə və təqdimata görə şirkətə də təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Füzuli şəhərinin tikintisinin Baş Planının təsdiqləndiyini, artıq yaşayış fondunun tikililərə başladığını, həmin vaxtadək bu mərkəz hazır olarsa, ilk Füzuli sakinlərinin oraya köçürməyi planlaşdırdığını xüsusi vurğulayıb.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Böyük perspektivə malik Orta Dəhliz layihəsinin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var





(Əvvəli 1-ci səhifədə)

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü keçirilib. Dövlət başçıları görüşdə çıxış ediblər.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç, Sizi bir daha ürəkdən salamlamaq, "Xoş gəlmisiniz!" demək istəyirəm.

Biz artıq ikitərəfli münasibətlərimizin geniş gündəliyinə, beynəlxalq problemlərə dair çox ətraflı söhbət etdik və bütün məsələlər barədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünü gördük. Əlbəttə, Sizə təşəkkür etmək istərdim ki, dəvətimizi qəbul etmisiniz və ölkəmizə rəsmi səfər edirsiniz. Əminəm ki, bu səfər münasibətlərimizin gələcək inkişafı üçün çox böyük əhəmiyyət kəsb edəcək.

İlk növbədə, artıq nümayəndə heyətlərinin iştirakı ilə məni Qazaxıstan Respublikasının "Altın kıran" ali ordeni ilə təltif etdiyinizə görə bir daha təşəkkürümü bildirmək istərdim. Bu mükafata layiq görülməyim mənim üçün böyük şərəfdir və mən bunu xalqlarımızın dostluğunun və qardaşlığının təsdiqi, Azərbaycanın münasibətlərimizin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymət hesab edirəm.

İndicə Qazaxıstanın Azərbaycana hədiyyəsinin - işğaldan azad edilmiş ərazilərdə tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin təqdimatı keçirildi və bu, bizim xalqımıza qardaşcasına münasibətin daha bir təzahürü, hazırda bizim hamımızın məşğul olduğumuz Qarabağın bərpası işinə töhfədir.

İkitərəfli gündəliyə gəldikdə, o, kifayət qədər genişdir. Sizin səfəriniz ərəfəsində müvafiq strukturlar bir çox məsələlər üzərində hərtərəfli iş aparıblar, 20-dən artıq sənədin imzalanmasına doğru gedirik - onların bir qismi bizim iştirakımızla imzalanacaq və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə ciddi kömək edəcək.

Xarici siyasətin gündəliyinə gəldikdə isə biz, iştirak etdiyimiz aparıcı beynəlxalq təşkilatlarda geniş əhatəli məsələlər üzrə fəal əməkdaşlıq edirik, daim bir-birimizi dəstəkləyirik və əminəm ki, bu, gələcəkdə də davam edəcək. Çünki bizim əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatların sayı kifayət qədər çoxdur və hər yerdə Qazaxıstan və Azərbaycan nümayəndələri sıx qarşılıqlı fəaliyyətdədirlər.



Əlbəttə, nəqliyyat-logistika infrastrukturunun inkişafı ilə bağlı böyük planlar var. Bu infrastrukturun yaradılması üçün həm Qazaxıstanda, həm də Azərbaycanda vaxtında tədbirlər görülüb. İndi ölkələrimiz arasında yük axınının birləşdirilməsi və onun həcminin artırılması, ölkələrimizin tranzit potensialının yüksəldilməsi barədə söhbət gedir. Müvafiq orqanlar artıq müəyyən vaxtdır ki, bu istiqamətdə aktiv qarşılıqlı fəaliyyət göstərirlər. Fikrimcə, Orta Dəhliz çox böyük perspektivə malikdir və əlbəttə, bu layihənin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var.

Əminəm ki, biz iqtisadi-ticari münasibətlərin inkişafına da təkan verəcəyik. Əmtəə dövriyyəsinin artırılması üçün hələ böyük ehtiyatlar var. Bu gün biz gələcək iqtisadi-ticari əməkdaşlığın bəzi istiqamətləri barədə fikir mübadiləsi apardıq, qarşılıqlı tədarüklərin artırılması baxımından onu konkretləşdirə bilərik. İnvestisiya sahəsində də böyük perspektivlər var. Həm Qazaxıstanda, həm də Azərbaycanda çox müsbət investisiya mühiti, xarici investisiyaların böyük həcmi var. Düşünürəm ki, bizim bu istiqamətdə də səylərimizi birləşdirməyin, Azərbaycanda, Qazaxıstanda, ola bilsin, başqa ölkələrdə də birgə investisiya layihələrində iştirak etməyimizin vaxtı yetişib.

Qazaxıstanın Azərbaycana bugünkü hədiyyəsi - Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi ölkələrimiz arasında humanitar əməkdaşlığın daha bir elementidir. Bu əməkdaşlıq da uğurla inkişaf edir. İki gün bundan əvvəl Sumqayıtın mərkəzi küçələrinin birinə qazax xalqının görkəmli oğlu, maarifçi, türkoloq Əhməd Baytursunovun adı verilib. Bu da bizim əcdadlarımıza hörmətin əlamətlərindən biridir.

Bir daha Sizi səmimi qəlbdən salamlayıram. Bir daha təşəkkürümü bildirirəm ki, Siz bizə gəlməyə vaxt tapmısınız. Əminəm ki, əlaqələrimiz gələcəkdə də uğurla davam edəcək, iki qardaş ölkə arasında münasibətlər uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz.

### Prezident Kasım-Jomart Tokayevin çıxışı

- Təşəkkür edirəm, hörmətli İlham Heydər oğlu.

Əziz həmkarlar, ilk növbədə, gözəl, bənzərsiz Bakı şəhərinə, - biz Xəzərin mənzərələrinə tamaşa edirik, - səfərə dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim.

Məhdud tərkibdə görüşdən tamamilə məmnunam. Biz bu görüşdə əməkdaşlığın müxtəlif sahələrində dövlətlərimizin qarşılıqlı fəaliyyətinin demək olar bütün məsələlərinə dair ətraflı fikir mübadiləsi apardıq. Qazaxıstan və Azərbaycan bir-birinə yaxın dövlətlərdir, biz strateji tərəfdaşlarıq, müttəfiqlərik. Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik qarşılıqlı münasibətlərinin dərinləşməsi haqqında Bəyannamə imzalanacaq.

Mən Bakıya xüsusi missiya ilə gəlmişəm - əməkdaşlığımızı yeni səviyyəyə çatdırmaq missiyası. Sevindirici haldır ki, son illərdə ticarətin həcmi praktiki olaraq 3 dəfə artıb. Lakin qeyd etmək istərdim ki, bu, arxayınlaşmağa əsas vermir, çünki fikrimcə, ticarəti artırmaq üçün hər halda imkanlar var. Ölkələrimizin hökumətləri məhz bu istiqamətdə işləməlidirlər ki, mənim fikrimcə, artıq lap yaxın vaxtlarda biz ölkələrimiz arasında ticarətin həcmini bir milyard dollara çatdıra bilək.

Siz düzgün qeyd etdiniz ki, Qazaxıstan və Azərbaycan əsas beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında bir-biri ilə səmərəli qarşılıqlı fəaliyyət göstərir. Bu baxımdan ölkələrimiz arasında hər hansı problem yoxdur. Bu da sevindirici haldır ki, dövlətlərimizin parlamentləri bir-biri ilə sıx əməkdaşlıq edir. Müasir şəraitdə bu, çox vacibdir.

Bu məsələdə də Sizinlə razıyam ki, humanitar əməkdaşlıq vacibdir. Burada çox böyük imkanlar var. Fikrimcə, gələn il ölkələrimizin hökumətləri arasında razılaşma əsasında, əvvəllər deyildiyi kimi, Qazaxıstanda Azərbaycan mədəniyyəti ongünlüyü keçirə bilərik. Sizin mədəniyyətə böyük maraq qalmaqdadır. Güman edirəm ki, bizim insanlar Azərbaycan mədəniyyəti üçün darıxıblar və biz Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrini öz ölkəmizdə böyük məmnuniyyətlə qəbul edə bilərik.

Bir faktı xüsusi qeyd etmək istərdim ki, Sizin güclü, nüfuzlu rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişafda çox böyük nəticələr qazanır. Mən statistikanı diqqətlə nəzərdən keçirdim, bu, güclü təsir bağışlayır. İqtisadiyyat inamla artır. Mən belə başa düşdüm ki, cari ilin birinci rübündə ümumi daxili məhsul təqribən 7,5 faiz artaraq 23,5 milyard dollara çatıb. Yəni, Azərbaycanın iqtisadi inkişaf perspektivləri çox yaxşıdır. Əlbəttə, burada Azərbaycan xalqının ümummilli lideri kimi Sizin tarixi xidmətiniz var.

İndicə dediyim kimi, Qazaxıstanda Sizə çox böyük hörmət bəsləyirlər, insanlar Sizi tanıyır, dəstəkləyir, səmimi hörmət bəsləyirlər. Bununla əlaqədar bütün xalqımız adından Sizə bu gün orden təqdim etməyi zəruri saymışam. Məhz Sizin güclü, nüfuzlu rəhbərliyinizlə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi kimi tarixi əhəmiyyətli vəzifə yerinə yetirilib. Bildiyiniz kimi, Qazaxıstan Azərbaycana münasibətdə dövlətlərin ərazi bütövlüyü prinsipini həmişə dəstəkləyib. Hesab edirəm ki, bu ədalətli prinsip müasir beynəlxalq hüquqa tamamilə müvafiqdir. Ona görə burada da eyni mövqe, eyni yanaşmalar, ortaq baxışlar var. Hesab edirəm ki, bu, gələcəkdə bizim əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas olacaq.

Bu əməkdaşlığın yekunlarına və ya nəticələrinə gəldikdə, mən əsla şübhə etmirəm ki, onlar müsbət olacaq. 1990-cı illərdə dövlətlərimiz arasında problemlər var idi. Mən o dövrü xatırlayıram və əlbəttə, Sizin də yadınızdadır, bugünkü mövqedən həmin problemlər çox cüzi, çox kiçik idi, amma onlar var idi. Yadımdadır, biz 8 milyon dollar məbləğində borc problemini müzakirə edirdik. Belə bir problem var idi. Bu gün biz heç də təsadüfən demirik ki, əməkdaşlığımız strateji xarakter daşıyır. Ona görə ki, bunlar, sadəcə, gurultulu sözlər deyil, əməkdaşlıq özü onun həcmi baxımından məhz belə xarakter daşıyır.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Böyük perspektivə malik Orta Dəhliz layihəsinin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var

(Əvvəli 2-ci səhifədə)



Əlbəttə, Azərbaycan nəqliyyat dəhlizlərinin inkişafı baxımından Qazaxıstan üçün xüsusi maraq doğurur. Şübhəsiz, burada üstünlük Azərbaycana məxsusdur. Əlbəttə, düşünürəm ki, Qazaxıstanın bir dövlət kimi, - faktiki olaraq biz Xəzər sahillərində yanaşı yerləşən qonşu ölkələrik, - burada çox yaxşı perspektivləri var. Mən hökuməti, müvafiq idarələri nəqliyyat-logistika əlaqələrinin inkişafı baxımından Sizin nümayəndələrlə sıx qarşılıqlı fəaliyyətə və birgə işə istiqamətləndirirəm.

Bir daha təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Sağ olun.

Rəsmi səfər çərçivəsində geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan arasında bir sıra əhəmiyyətli sənədlər imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.



Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Kasım-Jomart Kemeleviç, hörmətli qonaqlar, xanımlar və cənablar.

Kasım-Jomart Kemeleviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Siz Azərbaycana rəsmi səfər edirsiniz. Bu, xalqlarımız arasında dostluğun və qardaşlığın təzahürüdür. Bu gün səfər çərçivəsində ikitərəfli gündəliyin aktual məsələlərinə, regional təhlükəsizliklə bağlı məsələlərə, beynəlxalq problemlərə dair ətraflı danışıqlar aparıldı, çoxlu sənədlər imzalandı. Onlardan bəziləri bizim iştirakımızla, 20-dən çox sənəd isə bu gün müvafiq strukturlar arasında imzalandı. Bu, münasibətlərimizin daha geniş hüquqi bazasını yaradır. Əlbəttə, həmin sənədlər içərisində Qazaxıstan ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəmlənməsi və müttəfiqlik qarşılıqlı əlaqələrinin dərinləşməsi haqqında indicə imzalanmış Bəyannaməni xüsusi qeyd etmək istərdim. Bu Bəyannamənin adı sənədin əhəmiyyətinə dəlalət edir. Biz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqlərik. Əlbəttə, bu, bizim üzərimizə xüsusi məsuliyyət qoyur və biz bu məsuliyyətə hazırıq. Bəyannamə bizim əməkdaşlığımızın çox istiqamətlərini ehtiva edir və əlbəttə ki, gələcək fəaliyyətimiz üçün çox ciddi baza kimi xidmət edəcək.

Biz beynəlxalq arenada əməkdaşlığımızın inkişafı yollarını müəyyən etdik. Biz aparıcı beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq və əlbəttə, çoxtərəfli əməkdaşlıq üçün yeni ilkin şərtlər yaranır. İyun ayında Bakıda Azərbaycan, Qazaxıstan və Türkiyənin xarici işlər və nəqliyyat nazirlərinin görüşü oldu. Bu, çoxtərəfli əməkdaşlığın yeni formatıdır və bu əməkdaşlığın böyük perspektivləri var. Birgə Bəyannamədə həm də Azərbaycanın Mərkəzi Asiyanın beş ölkəsi ilə çoxtərəfli əməkdaşlığının gələcəkdə mümkün inkişafı da əksini tapıb. Fikrimcə, bu da təbiidir, çünki xalqlarımızın tarixi də, ənənələri də, mədəniyyəti də bütün sahələrdə daha sıx qarşılıqlı fəaliyyət göstərilməsini tələb edir.

Bu gün biz nəqliyyat-logistika sahələri haqqında ətraflı danışdıq və hökumətin üzvlərinə əlaqələri intensivləşdirmək barədə müvafiq tapşırıqlar verdik. Çünki ölkələrimizi birləşdirən Orta Dəhlizin çox böyük perspektivləri var. Artıq həm Qazaxıstanda, həm də Azərbaycanda böyük həcmli yükləri nəql etməyə imkan verən müasir infrastruktur yaradılıb. Lakin biz əməkdaşlığın gələcək istiqamətlərini müəyyən etmişik ki, Orta Dəhlizin buraxıcılıq qabiliyyətini daha da artıraq.

Birgə Bəyannamədə Azərbaycanın Şərqi Zəngəzur rayonunun Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinin vacibliyi də qeyd edilib. Bu da Orta Dəhlizin tərkib hissəsi olacaq. Mən işğaldan azad edilmiş ərazilərdə gördüyümüz işlər barədə Kasım-Jomart Kemeleviçi məlumatlandırmışam.

Fürsətdən istifadə edib Qazaxıstan Prezidentinə işğaldan azad edilmiş Füzuli şəhərində Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin yaradılması təşəbbüsünə görə bir daha təşəkkürümü bildirmək istərdim. Bu gün həmin mərkəzin təqdimatı keçirildi və biz Qazaxıstanda keçmiş məcburi köçkünlərin qayıtması problemlənə nə dərəcədə səmimi münasibət bəsləndiyini, bu problemin Qazaxıstan üçün də nə dərəcədə aktual olduğunu bir daha gördük. Bu təşəbbüsə görə çox təşəkkür edirik. Bu, dostluğun, qardaşlığın, həmrəyliyin təzahürüdür. Əminəm ki, qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyacaq Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi həm də Qazaxıstan-Azərbaycan dostluğu mərkəzi olacaq.

Məni Qazaxıstanın ali ordeni - "Qızıl qartal" kimi tərcümə edilən "Altın kıran" ordeni ilə təltif etdiyinə görə Qazaxıstan Prezidentinə bir daha təşəkkürümü bildirmək istərdim. Mən bunu bütün Azərbaycan xalqına ehtiram əlaməti, ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin inkişafı üçün göstərdiyim və göstərəcəyim səylərə münasibətin ifadəsi kimi qiymətləndirirəm.

Bu gün Qazaxıstan Prezidenti ilə görüşümüz zamanı mən onu Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinin indiki vəziyyəti barədə ətraflı məlumatlandırdım və Azərbaycanın Cənubi Qafqaz regionunda uzunmüddətli və möhkəm sülh yaratmaq niyyətini təsdiq etdim. Mən, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün həm işğal dövründə, həm də İkinci Qarabağ müharibəsindən sonra Qazaxıstan tərəfindən beynəlxalq qurumlar çərçivəsində daim dəstəklənməsinə görə təşəkkürümü bildirdim. Biz Azərbaycanda bunu yaxşı bilirik və çox yüksək qiymətləndiririk.



Bu gün biz söhbətlər və müzakirələr çərçivəsində əmtəə dövriyyəsinin necə artırılması məsələsinə də toxunduq. Fikrimcə, əsas diqqətin nəqliyyat-logistika sahəsi çərçivəsində məhz qarşılıqlı fəaliyyətimizin prioritet istiqamətləri üzərində cəmləşdirilməsi öz növbəsində daha artıq ixrac-idxal əməliyyatları həyata keçirməyə imkan verəcək. Mənim fikrimcə, burada böyük potensial var. Düşünürəm ki, Qazaxıstan Prezidenti bizim hədəflədiyimiz rəqəmi səsləndirdi - 1 milyard dollar dəyərində əmtəə dövriyyəsi. Məncə, hər iki tərəfin qarşılıqlı fəaliyyəti dərinləşdirmək niyyətini nəzərə almaqla, bu, tamamilə realdır.

Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sahəsi ilə bağlı başqa məsələləri, humanitar əməkdaşlıq məsələlərini də müzakirə etdik. Başqa sözlə desək, bu gün müzakirə sahəsi kifayət qədər genişdir və hər bir istiqamət üzrə ölkələrimizin baxışlarının tamamilə üst-üstə düşdüyünü görürük. Bu, bir daha göstərir ki, Qazaxıstan və Azərbaycan təkcə sözdə deyil, əməli işdə də strateji tərəfdaşlar və müttəfiqlərdir.

Mən Qazaxıstan Prezidentinə ölkəmizə səfər etdiyinə, onun tərəfindən, qardaş qazax xalqı tərəfindən gördüyümüz münasibətə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Kasım-Jomart Kemeleviçə onun bütün təşəbbüslərində öz adımdan və bütün Azərbaycan xalqı adından uğurlar arzulamaq istəyirəm. Mən hələ söhbət zamanı onun həyata keçirdiyi islahatlara, iqtisadi inkişafa yönəlmiş islahatlara, Qazaxıstanın müstəqilliyinin, suverenliyinin möhkəmlənməsinə yönəlmiş addımlara öz münasibətimi bildirmişəm. Biz Azərbaycanda bu islahatları tamamilə dəstəkləyirik və ən başlıcası, onlar Qazaxıstan xalqı tərəfindən dəstəklənir. Xalq görür ki, Prezidentin sözləri ilə işləri bir-birinə zidd deyil, onlar Kasım-Jomart Kemeleviçin Qazaxıstanı daha da inkişaf etdirmək üzrə fəaliyyətinin nəticələrini görürlər. Biz Sizin dostlarınız, qardaşlarınız kimi buna çox şadıq və bütün qardaş Qazaxıstan xalqına bundan sonra da uğurlar, firavanlıq və sülh arzu etmək istəyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Böyük perspektivə malik Orta Dəhliz layihəsinin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var





(Əvvəli 3-cü səhifədə)

Sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bəyanatla çıxış edib.

**Prezident Kasım-Jomart Tokayevin bəyanatı**

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli xanımlar və cənablar.

Mən, ilk növbədə, gözəl Bakı şəhərinə rəsmi səfərə dəvətə görə səmimi minnətdarlığımı bildirmək istərdim. Bu gün biz çox geniş məsələlərə dair səmərəli danışıqlar apardıq. Azərbaycan Prezidentinin düzgün olaraq qeyd etdiyi kimi, hansısa problem, maneə görmədik, əksinə, istər iqtisadi, istərsə də humanitar sahələrdə konkret nəticələrə nail olmaq məqsədilə səyləri artırmaq barədə qarşılıqlı istək ifadə olundu. Xüsusi qeyd etmək istərdim ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq ərazi bütövlüyünü Zəfərlə bərpa edən Azərbaycan öz inkişafının yeni dövrünə qədəm qoyub və bu işdə, əlbəttə ki, Azərbaycanın milli lideri, bizim qardaş ölkənin Prezidenti İlham Heydər oğlu Əliyevin çox böyük şəxsi xidmətləri var. Fürsətdən istifadə edib bir daha qeyd etmək istərdim ki, Azərbaycan bu gün Sizin güclü rəhbərliyinizlə öz inkişafında nəzərəçarpacaq nəticələrə nail olur, biz Sizin ölkənizdə bu tendensiyaları müşahidə edir və buna ürəkdən sevinirik.

Biz, həmçinin Qarabağın və Şərqi Zəngəzurun necə dinamik dirçəldildiyini görürük. Sizin şəxsi səyləriniz sayəsində yaxın gələcəkdə bu region çiçəklənən diyara çevriləcək, buna heç bir şübhə yoxdur. Qazaxıstan öz tərəfindən bu nəcib işə əlindən gələn töhfəni verməyə hazırdır. Bu gün bizim hədiyyəmizin təqdimatı keçirildi, qazax xalqı adından burada, - Füzuli şəhərini nəzərdə tuturam, - gələn ilin sonunadək Kurmanqazı adına incəsənət məktəbi tikiləcək. Bu obyektin inşası Qazaxıstanın aparıcı "BI" tikinti şirkətinə həvalə edilib. Bu gün o, zəmanət verdi ki, məktəb elan edilmiş müddətdə hazır olacaq və əlbəttə, keyfiyyət təmin ediləcək. Buna heç bir şübhə yoxdur, çünki şirkət kifayət qədər məsuliyyətlidir.

Bu da əlamətdardır ki, mənim səfərim yubiley tarixinə - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsinə təsadüf edir, üç gündən sonra biz bu tarixi qeyd edəcəyik. Demək lazımdır ki, mən ümumiyyətlə xidməti vəzifələrimlə əlaqədar ölkələrimiz arasında əməkdaşlığın inkişafı prosesində lap əvvəldən iştirak edirəm, biz kifayət qədər böyük yol keçmişik. Sıfırdan başlamışıq və bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik barədə tam əsasla danışırıq. Bu əməkdaşlığın genişləndirilməsi, şaxələndirilməsi barədə Bəyannamə imzalanıb. Bu, irəliyə doğru real addımdır.

Bizim aramızda etimada əsaslanan siyasi dialoq qurulub, dövlətlərimiz beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında əməkdaşlıq edirlər.

Hörmətli İlham Heydər oğlu, əlbəttə ki, mən fürsətdən istifadə edərək, Sizə Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri müşavirəsinin çağırılması barədə Qazaxıstanın təşəbbüsünü dəyişməz olaraq dəstəklədiyinizə görə təşəkkürümü bildirmək istərdim. Bu il oktyabrın ortalarında bizim paytaxtımızda Zirvə görüşü təşkil olunacaq və biz, əlbəttə ki, bu, çox mühüm forumda Sizin şəxsən iştirakınızı səbirsizliklə gözləyirik. Sizin bu forumda iştirakınız istənilən nəticə əldə etmək baxımından çox müsbət təsirə malik olacaq.

Həmçinin onu da qeyd etmək istərdim ki, ötən ilin yekunlarına görə qarşılıqlı əmtəə dövriyyəsinin həcmi üç dəfə artıb, yeni müsbət dinamika qorunub saxlanılır. Lakin mütləq rəqəmlərdə bu nəticə kifayət qədər ürəkaçan görünmür. Buna görə də bu gün razılaşma əldə edilib ki, tərəflər qarşılıqlı ticarətin məhz mütləq rəqəmlərinin artması üçün hər cür səy göstərəcəklər. Yəqin ki, yaxın illərdə biz milyard dollar həddinə nail olmaq barədə danışa biləcəyik.

Sevindirici haldır ki, gündəlikdə duran mədəni-humanitar məsələlər birgə səylərlə zənginləşir, bu da, əlbəttə, xalqlarımızın daha da yaxınlaşmasına kömək edir. Bu gün mən ölkəmizdə Azərbaycan mədəniyyəti ongünlüyünün keçirilməsi barədə təşəbbüs irəli sürdüm. Bu tədbirin populyarlığına heç bir şübhəm yoxdur, çünki xalqımız Azərbaycan mədəniyyəti üçün, sizin görkəmli incəsənət xadimləri üçün darıxıb. Mən ümidvaram ki, bu tədbir baş tutacaq və uğur qazanacaq. Bundan başqa, biz ölkələrimiz arasında mədəniyyət xadimlərindən ibarət nümayəndə heyətlərinin mübadiləsini həyata keçirmək barədə razılığa gəldik. Biz minnətdarıq ki, Sumqayıt şəhərində küçələrdən biri qazax xalqının görkəmli nümayəndəsi Əhməd Baytursınovun adını daşıyır. Əlamətdar haldır ki, Əhməd Baytursınov 1926-cı ildə məhz burada, Bakı şəhərində keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayının nümayəndəsi olub. Mənim fikrimcə, bu fakt bir daha göstərir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələr həmişə çox sıx olub.

Bildiyiniz kimi, bizim paytaxtımız Nur-Sultan şəhərinin, - o vaxt Astana adlanırdı, - küçələrindən birinə görkəmli dövlət xadimi, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin adı verilmişdir. Lakin şəhər inkişaf edir, paytaxt inkişaf edir və indi bugünkü mövqedən yanaşanda bu küçə o qədər də möhtəşəm deyil, amma Heydər Əliyevin adını daşıyır. Buna görə mən qərara aldım və paytaxtın akiminə müvafiq tapşırıq verdim ki, o, bizim paytaxtın böyük küçələrindən və ya prospektlərindən birinə Heydər Əliyevin - bizim çox böyük hörmət bəslədiyimiz, ölkəmizdə səmimi ehtiram bəslənilən insanın adının verilməsini təklif etsin.

Bu gün biz dövlətlərimiz arasında qarşılıqlı münasibətlərin və əməkdaşlığın nəqliyyat-logistika sahəsinin inkişafı barədə çox ətraflı söhbət etdik. Demək olar ki, müfəssəl danışıq, hökumətlərimizə müvafiq tapşırıqlar verdik. Əslə şübhə yoxdur ki, bu istiqamətdə konkret nəticələr əldə ediləcək. Hər halda Qazaxıstan tərəfindən əməkdaşlığın bu növünün inkişafına mütləq mənada maraq var.

Kənd təsərrüfatı sahəsini xüsusi qeyd etmək istərdim. Burada biz bir-birimizi qarşılıqlı tamamlayırıq. Bilirsiniz ki, Qazaxıstanın taxıl, buğda, kənd təsərrüfatı məhsullarının digər növlərini tədarük etmək imkanı var. Eyni zamanda, bizdə Azərbaycandan kənd təsərrüfatı məhsullarını, yeni, meyvə-tərəvəz məhsullarını idxal etməyə ehtiyac var. Ümumiyyətlə, bir sıra qazaxıstanlı istehsalçılar Azərbaycana 100 adda, 300 milyon dollardan artıq məbləğdə mal tədarükünü artırmağa hazırdırlar. Buna görə biz həmin əmtəə dövriyyəsinin logistikasını təmin etməliyik və bu, ölkələrimizin hökumətlərinin vəzifəsidir. Bu gün bu barədə razılığa gəldik.

Başqa məsələlərə gəldikdə, qeyd etmək istərdim ki, səfərimin yekunlarını çox uğurlu qiymətləndirirəm. İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə, eləcə də onun hökumətinə əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində çox məhsuldar işə görə minnətdarlığımı bildirmək istərdim.

Qazaxıstana gəldikdə isə bizim tərəfimizdən hər hansı maneə olmayacaq, biz çox səmərəli işləyəcəyik. Biz tamamilə haqlı olaraq ölkələrimiz arasında qarşılıqlı münasibətlərin strateji xarakter daşımasından danışırıq. "Strateji" sözü çox öhdəliklər qoyur, bu söz konkret məna, konkret məzmun daşımalıdır və biz bunun üzərində işləməliyik. Mən əməkdaşlığımızın gələcəyi barədə çox nikbinəm. Qonaqpərvərliyə və yüksək işgüzar şərait yaradılmasına görə Sizə bir daha təşəkkür edirəm.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə rəsmi ziyafət verilib.

* * *

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar.

Qazax xalqının milli geyimində olan qızlar dövlət başçılarını çörəklə qarşılayıblar.

Prezidentlərə yurta barədə məlumat verərək bildirildi ki, avqustun 1-də açılan və avqustun 31-dək davam edəcək "Qazax yurtası"nda dost və qardaş ölkənin turizm potensialının təqdim edildiyi diqqətə çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev qazax musiqi qrupunun ifasını dinlədikdən sonra çay süfrəsi arxasında söhbət ediblər.

* * *

Rəsmi səfər zamanı Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Həmçinin ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

Daha sonra Qazaxıstan Prezidenti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib.

Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Qazaxıstanın və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Həmin gün Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycan Respublikasına rəsmi səfəri başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# "Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsinin bağlanış mərasimi keçirilib



*VIII"Beynəlxalq Ordu Oyunları" çərçivəsində Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında baş tutan "Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsi uğurla başa çatıb. Bu münasibətlə avqustun 25-də Hərbi Dəniz Qüvvələrinin bazasında təntənəli bağlanış mərasimi keçirilib.*

Bağlanış mərasimindən öncə iştirakçı dövlətlərin rəsmi nümayəndələri xalqımızın ümummilli lideri Heydər Əliyevin Hərbi Dəniz Qüvvələrinin qərargahı qarşısında ucaldılan abidəsini ziyarət edərək qarşısına qızılgüllər düzüb, xatirəsini ehtiramla yad ediblər.

Təntənəli bağlanış mərasimi hərbi orkestrin ifa etdiyi Xalq artisti, general-mayor Yusif Axundzadənin "Azərbaycan fanfarası" ilə başlanıb.

Mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani və aparıcılar - 2-ci dərəcəli kapitan Mixail Skiyamin və Rəna Qurbanova müsabiqə iştirakçılarını və qonaqları salamlayaraq bildiriblər ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 2015-ci ildən keçirilən, qeyri-formal olaraq hərbi olimpiada adlandırılan "Beynəlxalq Ordu Oyunları" ildən-ilə ətrafına daha çox iştirakçı dövlətləri cəlb edir, müsabiqənövlərinin sayı daha da çoxalır. Bu il Azərbaycan tankçıları Rusiyada, artilleriyaçılarımız Qazaxıstanda, snayperlərimiz İranda, hərbi dənizçilərimiz isə Azərbaycanda keçirilən "Dəniz Kuboku" müsabiqələrində gərgin mübarizə aparıblar. Beşinci ildir ki, "Dəniz Kuboku" beynəlxalq müsabiqəsinə Azərbaycan evsahibliyi edir və hər dəfə də iştirakçı dövlətlərin komandaları respublikamızdan xoş təəssüratlarla ayrılırlar.



"Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsinin hakimlər heyəti və komandalar mənsub olduqları ölkələrin dövlət bayraqları və tamaşaçıların alqışları altında təntənəli mərasimə dəvət ediliblər.



Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov yarışların başa çatması münasibətilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Hərbi Dəniz Qüvvələrinin komandanlığı adından yarış iştirakçılarını, qonaqları, hakimlər heyətini, təşkilatçıları və kütləvi informasiya vasitələrinin nümayəndələrini təbrik edib.

Kontr-admiral S.Bəkirov qeyd edib ki, dünyanın bir çox regionlarında orduların döyüş meydanlarında qarşı-qarşıya gəldiyi, qanlı toqquşmaların, hərbi münaqişələrin, terror hadisələrinin, təxribatların genişləndiyi bir vaxtda Xəzərsahili dövlətlərin hərbi dənizçilərinin öz güclərini yarış meydanlarında sınamaları, mübarizə aparmaları təqdirəlayiq hadisədir.Azərbaycan xalqı müharibənin, terrorun nə olduğunu çox yaxşı bilir və dünyada sülhün bərqərar olması üçün dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə səylərini əsirgəmir.



Komandan deyib: "İki il öncə 30 ilə yaxındır xalqımızın yolunu həsrətlə gözləyən tarixi torpaqlarımızın işğalına son qoymuşuq. Vətən uğrunda döyüşlərdə şəhidlər də vermişik, itkilərimizdə olub. Biz bunu heç də istəməzdik. Bizi müharibəyə vadar ediblər. Ancaq sevinirik ki, tarixi torpaqlarımız azaddır, ərazi bütövlüyümüz bərpa olunub. Hazırda müharibənin vurduğu ağır yaraları sağaldırıq. Azad edilən minillik torpaqlarımızda quruculuq işləri geniş vüsət alır. Öz doğma yurdlarından qaçqın düşən soydaşlarımız yurd-yuvalarına qayıdırlar. Biz tarixi ədalətin qələbə çalacağına həmişə inanırdıq və bir daha bunun şahidi olduq. Arzu edirəm ki, dünyada həmişə sülh, əmin-amanlıq olsun, haqq-ədalət qələbə çalsın!".



Kontr-admiral S.Bəkirov həyatını hərbi dənizçi kimi çətin və şərəfli bir peşəyə həsr edən gənclərə üzünü tutaraq vurğulayıb ki, su və polad insanı daha da bərkidir. Dəniz ləkə götürmür, nətəmiz, qara fikirli insanları sevmir. Sudan qorxan dənizə baş vurmasa yaxşıdır. Dost öz dostunu dənizin ortasında buraxmaz.

Tədbir iştirakçıları komandanın "Gəlin bundan sonra da dənizi sevək, dənizi qoruyaq, onun qədirini bilək. Onda dəniz də bizi sevəcək, bizi qoruyacaq, nemətlərini bizdən əsirgəməyəcəkdir. Şübhəsiz, rusiyalı da, iranlı da, qazax da, hər bir azərbaycanlı da Xəzərin keşiyində bundan sonra da mərdliklə dayanacaq, hərbi dənizçi peşəsini, şərəfini həmişə uca tutacaqdır" fikirlərini alqışlarla qarşılayıblar.

Komandan əmin olduğunu bildirib ki, Xəzərin sülh, əmin-amanlıq şəraitində bundan sonra da rahat nəfəs alması üçün birgə səylərimizi əsirgəməyəcək, "Dəniz Kuboku"-nda olduğu kimi, yenə də öz gücümüzü döyüş meydanlarında deyil, hərbi müsabiqələrdə, yarış meydanlarında sınamağı hər şeydən üstün tutacağıq.

(Ardı 8-ci səhifədə)

# "Beynəlxalq Ordu Oyunları-2022"



"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsinin birinci mərhələsinin yekununa həsr olunan tədbir keçirilib.

Birinci mərhələnin 8 çalışmasının yekununda fərdi birincilik müəyyənləşdirilib. Birinci yerə layiq görülən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Sonda müsabiqədə iştirak edən komandaların heyəti səhnəyə dəvət olunub və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

* * *

"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçirilən "Dəniz kuboku" müsabiqəsinin başa çatması ilə əlaqədar Hərbi Dəniz Qüvvələrində mətbuat konfransı keçirilib.

Mətbuat konfransında iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici kütləvi informa-

Hakimlər komissiyası tərəfindən aparılan qiymətləndir-kürünü bildiriblər.

Sonra kütləvi informasiya vasitələri nümayəndələrinin sualları cavablandırılıb.

* * *

"Beynəlxalq Ordu Oyunları-2022" çərçivəsində İranın Yəzd şəhərində keçirilən "Snayper həddi" müsabiqəsinin ikinci mərhələsi üzrə müvafiq çalışmalar yerinə yetirilib.

Çalışmaların şərtinə uyğun olaraq 300-500 metr məsafədə yerləşən hədəflər məhv edilib. Sonra maneələr zolağını dəf edən növbəti snayper heyəti üçün hədəflər müəyyənləşdirilib və 400-600 metr məsafədə yerləşən 4 hədəfə atəş açılıb.

Snayper cütlükləri, həmçi-




hələnin şərtlərinə görə snayperlər komanda şəklində mübarizə aparacaqlar.

mərhələsində Qazaxıstan, Çin və Vyetnam komandaları ilə mübarizə aparıblar.

Mərhələnin nəticəsinə əsasən, Çin, Qazaxıstan və Azərbaycan tankçıları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

* * *

Avqustun 25-də "Snayper həddi" müsabiqəsinin üçüncü mərhələsi üzrə tapşırıqlar yerinə yetirilib. Mərhələnin ilk çalışmasının tələblərinə uyğun olaraq komanda şəklində fəaliyyət göstərən snayperlərimiz 300-600 metr məsafədə peyda olunan hədəfləri sərrast atəşlə məhv ediblər.

Növbəti çalışma zamanı birinci snayper cütlüyü 150-200 metr aralıqda olan hədəfə atəş açılması, eləcə də silahlarla 300 metrlik məsafənin qaçaraq dəf edilməsi tapşırıqlarını yerinə yetiriblər. Daha sonra ikinci snayper cütlüyü 300-600 metr məsafədə peyda olan xüsusi hədəfləri məhv etməkdə bacarıqlarını nümayiş etdiriblər.



mənin yekun nəticələrinə əsasən, Azərbaycan və Rusiya hərbi dənizçiləri 225 xal toplayaraq müsabiqənin qalibi olublar. Qazaxıstan koman-

nin 150-200, 200-400 və 300-800 metr məsafədə sabit və hərəkət edən beş hədəfi sərrast atəşlə məhv ediblər.

Daha sonra hakim komissi-

* * *

"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Rusiya Federasiyasının Alabino hərbi poliqonunda avqus-





siya vasitələrinin nümayəndələri iştirak ediblər.

Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, hakimlər kollegiyasının işi, müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının göstəriciləri barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, "Dəniz kuboku" müsabiqəsi zamanı hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyənləşdiriblər.

dası 208 xalla ikinci, İran komandası isə 178 xalla üçüncü yerə layiq görülüb.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin ölkəmizdə şəffaf və yüksək səviyyədə keçirildiyini diqqətə çatdırıb. Kontr-admiral S.Bəkirov beynəlxalq müsabiqənin Xəzəryanı dövlətlər arasında tərəfdaşlıq və dostluğun inkişafına təkan verdiyini xüsusi qeyd edib.

İştirakçı ölkələrin nümayəndələri isə öz növbələrində belə mühüm yarışın Azərbaycanda beşinci dəfədir ki, təşkil edildiyini vurğulayaraq yaradılan yüksək şəraitə görə təşək-

yasının üzvlərinin iştirakı ilə üçüncü mərhələnin püşkatma mərasimi keçirilib.

Qeyd edək ki, üçüncü mər-

tun 24-də "Tank biatlonu" müsabiqəsinin yarımfinal mərhələsi keçirilib.

Tankçılarımız yarımfinal



Müsabiqə iştirakçıları qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirir.

* * *

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan İran və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin, həmçinin Rusiya Hərbi Dəniz Donanmasının gəmiləri və şəxsi heyəti Bakı limanını tərk edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə. 1992-1994-cü illər tarixi faktlar.

**Suallar:**

**1. XX əsrin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə. 1992-1994-cü illər tarixi faktlar.**

**2. Milli qurtuluş. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi. Milli dövlətçiliyə qarşı qəsdlərin qarşısının alınması.**

## XX əsrin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə. 1992-1994-cü illər tarixi faktlar

Ermənistan-Azərbaycan "Dağlıq Qarabağ" münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib. 1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonlarında Sovet İttifaqının mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin (DQMV-nin) ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçmişdirlər.

1988-ci il fevralın 20-də "DQMV" Xalq Deputatları Sovetinin erməni əsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs verdi (azərbaycanlı və digər millətlərdən olan deputatlar iclasda iştirak etməyib). İyunun 14-də Ermənistan SSR Ali Soveti "DQMV"-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsi" haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti buna etiraz olaraq iyunun 17-də DQMV-nin Azərbaycan SSR-in tərkibində olmasını yenidən təsdiq edib.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etdi. Ermənistan nəyin bahasına olursa-olsun Azərbaycan ərazilərini zəbt etmək istəyirdi. 1990-cı ilin mayında Ermənistanda keçirilən parlament seçkilərində Ermənistanda müharibəni təbliğ edən ifrat millətçi və şovinist qüvvələrin hakimiyyətə yiyələnməsi onların təcavüzkar müharibəyə başlamasını daha da sürətləndirdi. İrəvan (Yerevan) bütün səylərini qeyri-rəsmi hərbi birləşmələrin yaradılmasına və onların silahlandırılmasına yönəltdi.

Proseslərin gedişini hərtərəfli təhlil etməyi bacaran, məsələlərin həlli üçün dövlətin iradəsinin, prinsipial mövqeyinin vacibliyini başa düşən, uzaqgörən şəxsiyyət, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu dövrdə məcburi istefada idi. Onun siyasətdən uzaqlaşdırılması münaqişənin ermənilərin istəyinə uyğun olaraq daha da dərinləşməsinə bilavasitə təsir göstərmişdir.

1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının Bakıya yeridilməsi və Qanlı Yanvar faciəsinin törədilməsindən sonra Kreml və şəxsən prezident Mixail Qorbaçov tam nüfuzdan düşdü. Bakıdan sonra sovet qoşunları Neftçala və Lənkəranda mülki şəxsləri qətlə yetirdi. Ümumilikdə, Yanvar hadisələri zamanı ölkə üzrə 150 nəfər öldürüldü. Azərbaycanın kommunist rəhbərləri xalqın milli şüurunda baş verən köklü dəyişiklikləri görmədiyi halda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedərək SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı yürütdüyü qərəzli siyasətə kəskin etirazını bildirib, sovet ordusunun dinc əhaliyə divan tutmasını qətiyyətlə pisləyib və daha sonra Kommunist partiyasının üzvlüyündən imtina etdi.

1991-ci il sentyabrın 2-də "DQMV" və Azərbaycan SSR-in Şaumyan (kənd) rayonu hüdudlarında qondarma "Dağlıq Qarabağ Respublikası" ("DQR") elan edilmiş, dekabrın 10-da isə "referendum" keçirilmişdir. Buna cavab tədbiri kimi, 1991-ci il noyabrın 23-də Azərbaycan Respublikasının Ali Soveti qondarma "Dağlıq Qarabağ"ın muxtariyyət statusunu ləğv edib. Bu vaxta qədər açıq şəkildə ərazi iddiaları səsləndirən Ermənistan Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başlayıb. Bununla da, münaqişə yeni "qaynar mərhələ"yə keçib.

Müstəqilliyini elan etmiş Azərbaycan Respublikası ilk günlərdən digər dövlətlərlə münasibətlərini dövlət sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü, mübahisəli məsələlərin dinc yolla nizama salınması, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurdu. 1991-ci ilin sonunda Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlanması Rusiyaya Qarabağda yaşayan erməniləri Azərbaycana qarşı açıq-aşkar silahlandırmaq imkanı verdi. Ali Soveti "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanununa əsasən, 1991-ci ilin noyabrında 22 sərhədyanı bölgədə yerli əhalidən könüllü ərazi özünümüdafiə batalyonları yaradıldı. Döyüş qabiliyyətinə malik olmayan, lazımi silah və sursatla təmin olunmayan və müdafiə taktikası seçməyə məcbur olan özünümüdafiə batalyonları rus və erməni silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilmirdilər. Belə bir şəraitdə ermənilər rusların köməyi ilə 1992-ci ilin yanvarında Kərkicahan, fevralında Malıbəyli, Quşçular kəndlərini ələ keçirib Xocalı və Şuşanı mühasirəyə aldılar. Şuşanı mühasirədən çıxarmaq üçün aparılan "Daşaltı" əməliyyatı uğursuz oldu. Qeyri-bərabər döyüşdə erməni terrorçuları Qarabağlı kəndini ələ keçirib 150-yə yaxın müdafiəçini və kənd sakinini vəhşicəsinə qətlə yetirərək, meyitləri silos quyularına atdılar. Fevralın 25-də axşam saat 9-da erməni silahlı qüvvələri, Xankəndindəki Rusiyaya məxsus 366-cı alayın və muzdlu quldurların köməyi ilə Xocalıya hücum edərək şəhəri işğal etdilər. Xocalı soyqırımında 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 8 ailə bütünlüklə məhv edildi, şəhər yandırıldı.

Xocalı faciəsindən sonra xalqın tələbi ilə Ali Sovetin fövqəladə sessiyasında Prezident Ayaz Mütəllibov istefa verməyə məcbur oldu. 1992-ci ilin martında Şuşa artıq mühasirədə idi. 1500 nəfər döyüşçüsü olan Şuşa batalyonunda qalan 500 döyüşçü şəhərə hücuma keçmiş 366-cı alayın köməyi ilə 6000 düşmən əsgəri, 72 tankla qeyri-bərabər döyüşə girdi. Döyüş zamanı 155 nəfər şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü. Mayın 9-da Şuşa süqut etdi.

Moskvanın dəstəyi ilə A.Mütəllibovun tərəfdarları Ali Sovetin 1992-ci il 14 may tarixli sessiyasında onu yenidən hakimiyyətə gətirdilər. AXC tərəfdarları və cəbhədən geri çağırdığı hərbi qüvvələrin köməyi ilə Parlament binasını, Prezident sarayını və digər dövlət əhəmiyyətli məntəqələri ələ keçirdi. Silahlı qüvvələrin Laçından çıxarılmasından istifadə edən düşmən mayın 18-də Laçını işğal edərək Qarabağla Ermənistan arasında dəhliz yaratdı.

1992-ci il iyunun 7-də keçirilən prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy Prezident seçildi. Xalq Cəbhəsi-Müsavat cütlüyü dövründə Respublikada siyasi və iqtisadi böhran dərinləşdi. 1992-ci il mayın 15-də SSRİ hərbi əmlakının bölüşdürülməsi haqqında Daşkənd müqaviləsinə əsasən, Azərbaycana verilən silah və hərbi sursat əsasında ordunun təchizatı qismən yaxşılaşmışdı. Lakin Azərbaycana verilən texnikalar qəsdən sıradan çıxarılmış, işlək cihazlar sökülüb aparılmışdı. 1992-ci ilin yayında Azərbaycan Ordusunun Ağdərə əməliyyatı nəticəsində Goranboy bölgəsinin işğal edilmiş torpaqları azad edildi. Xocavənd istiqamətində gedən döyüşlərdə də düşmənə ciddi tələfat verildi.

Hökumətin Türkiyəyə meylini açıq nümayiş etdirməsi nəinki regionda maraqları olan Rusiya və İranı, hətta Qərb dövlətlərini də narahat etdi. ABŞ Konqresi 1992-ci ilin oktyabrında Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb, "Azadlığı Müdafiə Aktı"na Azərbaycana dövlət səviyyəsində hər cür yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci düzəlişi qəbul etdi. Dövlət çevrilişi yolu ilə hakimiyyəti ələ keçirmək istəyənlər 1992-ci ilin sonu 1993-cü ilin əvvəllərində hərbi qüvvələrimizi strateji əhəmiyyətli Kəlbəcərdən, az sonra Ağdərə bölgəsindən çıxardılar. Ağdərə-Kəlbəcər yolu düşmən tərəfindən tutuldu. 1993-cü ilin fevralında Ermənistan ordusu Rusiyanın 128-ci motoatıcı alayının və muzdlu əsgərlərin (kazaklar) iştirakı ilə Ağdərəni işğal etdilər. Martın sonundan güclü atəşə tutulan Kəlbəcər 1993-cü il aprelin 3-də düşmən əlinə keçdi. Müxtəlif siyasi qüvvələrin döyüş bölgələrindəki təxribatları nəticəsində 23 iyul 1993-cü ildə Ağdam şəhəri, 18 avqust 1993-cü ildə Cəbrayıl rayonu, 18 avqust 1993-cü ildə Füzuli rayonu, 31 avqust 1993-cü ildə Qubadlı rayonu və 31 avqust 1993-cü ildə Zəngilan şəhəri işğal edildi. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edilsə də, Ermənistan tərəfindən icra edilmədi.

## Milli qurtuluş. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi. Milli dövlətçiliyə qarşı qəsdlərin qarşısının alınması

Müstəqilliyimizin ilk illərində ölkə hakimiyyətində siyasi böhran davam edirdi. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq ulu öndər Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır. Ulu Öndərin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamanki Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Ali Sovetin sədri seçildi və həmin gün tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu.

Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə mövcud olan gərginlik tədricən aradan qalxmağa başladı. Qarabağda və Ermənistanla sərhəd boyu ərazilərdə gedən gərgin döyüşlər daha da intensivləşdi. Ulu Öndər cəbhədəki vəziyyətin ağırlığını görüb qəti, prinsipial mövqe ortaya qoyaraq 2 noyabr 1993-cü ildə radio və televiziya vasitəsilə xalqa müraciət etdi. Ölkə rəhbərinin bu müraciətindən sonra xalqın, torpağın təəssübünü çəkən minlərlə qeyrətli oğul və qızımız Şəhidlər xiyabanında and içərək "Vətən uğrunda!", "Heydər baba yolunda!" şüarları altında Qarabağa, döyüşə yola düşdülər. Ulu Öndərin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, döyüşçülərin qayğıları ilə yaşaması onlara yeni ruh yüksəkliyi vermiş və bunun məntiqi nəticəsi olaraq qəhrəman döyüşçülərimiz məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirdilər. Horadiz qəsəbəsi və 22 kəndi, Cəbrayıl rayonun bir yaşayış məntəqəsi azad edildi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu. Bu da ölkədə sabitliyin davam etməsi üçün mühüm şərt idi.

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz ulu öndər Heydər Əliyev yaradıb. Zaman keçdikcə onun necə uzaqgörən, müdrik rəhbər olduğunu görürük. 12 may 1994-cü ildə Ermənistanla cəbhədə uzun sürən atəşkəs elan etməklə Qarabağ məsələsinin sülh, diplomatik yolla həll edilməsinin tərəfdarı olduğunu bildirmişdir. Ermənistan tərəfindən işğal edilən torpaqlar beynəlxalq aləmdə Azərbaycan ərazisi kimi tanınırdı. Atəşkəs dövründə Azərbaycan Ordusu döyüş hazırlığını artırmaqla yanaşı, müasir silah və sursatla da təchiz olunurdu. Şübhəsiz ki, Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, dövlətlə xalqın birliyi təmin edilib.

Hamımızın Azərbaycan adlı bir Vətəni var! Qoynunda dünyaya göz açdığımız, minbir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu əvəzolunmaz diyar azərbaycanlı adını qürur və iftixarla daşıyan hər kəs üçün müqəddəs və ülvidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində zəfər çalaraq erməni işğalçılarını kapitulyasiyaya məcbur etdi, düşməni qovaraq ərazi bütövlüyünə nail oldu.

Bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırırsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bu uğurların təməlində ulu öndər Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənmə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, ulu öndər Heydər Əliyevin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Dəniz Kuboku-2022” beynəlxalq müsabiqəsinin bağlanış mərasimi keçirilib



(Əvvəli 5-ci səhifədə)

Çıxışının sonunda kontr-admiral Sübhan Bəkirov böyük fərəh hissi ilə diqqətə çatdırıb ki, on gün davam edən "Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsində güclülər qələbə çaldı, güclülər qalib gəldi. Ancaq ən böyük qələbəmiz dostluqda, hərbi əməkdaşlığa yeni zirvələr fəth etməyimizdir.

Hakimlər heyətinin son qərarına əsasən yarışlarda üçüncü yeri tutan İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin komandası, ikinci yeri tutan Qazaxıstan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandası, topladıqları eyni bala əsasən birinci yerə layiq görülən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin və Rusiya Hərbi Dəniz Donanmasının komandaları səhnəyə dəvət edilərək onlara medallar və qiymətli hədiyyələr təqdim olunub.

Müsabiqənin qalibləri olan Azərbaycan və Rusiya komandalarına kubok təqdim edilərək həmin komandaların mənsub olduqları ölkələrin dövlət himnləri ifa edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin, Rusiya Federasiyası Cənub Hərbi Dairəsi Mahnı və Rəqs Ansamblının, eləcə də Azərbaycan incəsənət ustalarının iştirakı ilə təqdim olunan "Qoy gəmilərimiz Xəzər sahillərini sülh, dostluq nəğmələri ilə sevindirsin" adlı teatrlaşdırılmış ədəbi-bədii-xoreoqrafik kompozisiya və konsert proqramı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

İştirakçı dövlətlərin rəsmi nümayəndələri çıxış edərək "Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin və Hərbi Dəniz Qüvvələrinin komandanlığına, eləcə də tədbirin təşkilatçılarına minnətdarlıq ediblər.



Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov Xəzər dənizinin sahillərində yenidən görüşmək arzusu ilə yarış iştirakçılarına uğurlu yol arzulayıb və müsabiqəni bağlı elan edib.

VIII Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsinin bayraqları endirilib.

"Dəniz Kuboku-2022" beynəlxalq müsabiqəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim dünyaşöhrətli Azərbaycan bəstəkarı və müğənni Müslüm Maqomayevin məşhur rus şairi Sergey Yeseninin "Əlvida Bakı" şeirinə yazdığı mahnı və atəşfəşanlıqla başa çatıb.

**"Azərbaycan Ordusu"**





## Azərbaycan Ordusunun bölmələri Laçın şəhərinə daxil olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Laçın şəhəri, eləcə də Zabux və Sus yaşayış məntəqələri Azərbaycan Ordusunun bölmələri tərəfindən tam nəzarətə götürülüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hazırda qeyd olunan ərazilərdə bölmələrimizin yeni dislokasiya məntəqələrinə yerləşdirilməsi, həmçinin zəruri mühəndis işlərinin görülməsi istiqamətində fəaliyyətlər davam etdirilir.



## Salam, Laçınım, salam!

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş bütün rayonlarda olduğu kimi Laçın şəhərində, Zabux və Sus kəndlərində də üçrəngli bayrağımız qürurla dalğalandırıldı. Bu əlamətdar gün xalqımızı, ölkədən kənarda yaşayan bütün azərbaycanlıları sevindirdi. Qəzetimizin şəxsi heyəti də bu tarixi günü qürur hissi ilə yaşayır. Əməkdaşımız Əməkdar jurnalist Rəşid Faxralı bu gün münasibətilə Laçın şəhərinə şeiri ilə salamlayır. Həmin şeiri oxucularımıza təqdim edirik.***

**"Azərbaycan Ordusu"**

Yay günüdü...
Yel əsir,
Yellər niyə tələsir?!
Zəfər işığı kimi
Gəlir Şuşanın səsi:
Salam, Laçınım, salam!

Necə gözəl görünür,
Bu torpağın çiçəyi.
İllərin müjdəsidi,
Daşın-dağın çiçəyi:
Salam, Laçınım, salam!

Ruhlar uğur diləyir
Haqqın təntənəsinə.
"Heyratı" sığal çəkir
Soltanbəyin səsinə:
Salam, Laçınım, salam!

Bu mahiyyət, bu qürur
Əsgər baxışındadı,
Qartal uçuşundadı
Şimşək çaxışındadı;
Salam, Laçınım, salam!

Yazılmamış şeirəm,
Oxunmamış bəstəyəm.
Tanrım uğur diləyib
Sənə uğur üstəyəm,
Salam, Laçınım, salam!
Salam, Laçınım, salam!

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 827
Nüsxə 4660